## *BİR OĞUL İTİRDİ VƏTƏN*

Yaxınlaşır qəhərli gün,
Sağalan deyil bu yara.
Bu, ümumxalq hüznü kimi
Həkk olubdur yaddaşlara.

Sülh idi onun amalı,
Döyüşdən də qorxmazdı, ha!
O, sözündə bütöv idi,
O, elmdə-böyük düha.

Bir oğul itirdi Vətən,
Döndü o, yaşıl çırağa.
Ürəklərdə göyərdi o,
Ürəklərdə döndü dağa.

Bir oğul itirdi Vətən,
Inanmaram yoxluğuna.
Bir oğul itirən Vətən
Ağı deyir yana-yana...

***Valeh Mirzə***

***Azərbaycan dövlətçiliyinin qoşa qanadı. – B. : Təhsil, 2006. – S.329.***